**Sevda Məmməd qızı Seyidova**

**UOT:331.5; JEL: J21.**

# Məşğulluq – iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biri kimi

***Xülasə***

*Məqalədə iqtisadi təhlükəsizlik problemi araşdırılaraq, onun əsas göstəriciləri dəyərləndirilir. Azərbaycanda iqtisadi təhlükəsizlik indikatorları olan ÜDM, əhalinin gəlirləri, işsizliyin səviyyəsi, iqtisadiyyata qoyulan investisiyalar, inflyasiyanın səviyyəsi və digər göstəriciləri təhlil edir. Məqalədə məşğulluğun dövlətin və əhalinin iqtisadi təhlükəsizliyində rolu göstərilərək, məşğulluğun makroiqtisadi tənzimlənməsinin gücləndirilməsi və əmək bazarında dövlət siyasətinin tənzimlənməsinin əhəmiyyəti göstərilir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, məşğulluq, əmək bazarı, işsizlik*

## Giriş

Dünya təcrübəsi göstərdiyi kimi, iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin müstəqilliyinin qarantıdır, cəmiyyətin sabitliyi və səmərəli həyatı, uğuru üçün bir şərtdir. İqtisadi təhlükəsizlik ənənəvi olaraq iqtisadi sistemin əhalinin normal yaşayış şəraitini təmin etmək qabiliyyətini, milli iqtisadiyyatın inkişafı üçün ehtiyatlarla davamlı təmin edilməsini, habelə milli-dövlət maraqlarının ardıcıl şəkildə həyata keçirilməsini müəyyən edən ən mühüm keyfiyyət xarakteristikası kimi qəbul edilmişdir. Əmək ehtiyatları ilə təminat və əhalinin rifahı ölkənin iqtisadi təhlükəsizliyini və davamlı inkişafını təmin edən amillərdən biridir. Əmək bazarı iqtisadi təhlükəsizliyə böyük təsir göstərir. Əmək bazarının formalaşmasının müxtəlifliyi və mürəkkəbliyi ölkənin iqtisadi strukturunda xüsusi mövqedə dayanır: bir tərəfdən, əmək bazarı ümumi iqtisadi sistemin ayrılmaz hissəsidir və iqtisadi kompleksləri bütün səviyyələrdə yüksəltmək üçün ən vacib vasitədir. Digər tərəfdən məşğulluq və əmək bazarının vəziyyəti və xüsusiyyətləri milli rifahı, sabitliyi, iqtisadi islahatların səmərəliliyini qiymətləndirən ən vacib sosial göstəricilərdir. İqtisadi inkişafın hazırkı mərhələsi göstərir ki, əmək ehtiyatları və əhalinin rifahının yüksəlməsi ölkənin iqtisadi təhlükəsizliyini və dayanıqlı inkişafını təmin edən əsas amillərdən biridir.



## Əhalinin iqtisadi təhlükəsizliyinin artırılmasına istiqamətlənmiş tədbirlər

İqtisadi təhlükəsizlik - ölkə iqtisadiyyatının daxili və xarici iqtisadi təhdidlərə effektiv cavab vermək qabiliyyətidir. İqtisadi təhlükəsizliyin əsas vəzifələri: sabit iqtisadi artımın təmin edilməsi; inflyasiya və işsizliyin qarşısının alınması; iqtisadi qurumların səmərəli işləməsi üçün şəraitin yaradılması; dinamik qiymətli kağızlar bazarının inkişafı və dəstəklənməsi; əhalinin məşğulluğunun və iqtisadi təhlükəsizliyinin təmin edilməsi. Ölkənin iqtisadi sabitliyinə əsas təhdidlərə sosial qeyri-sabitliyə səbəb olan əhalinin gəlirlərinin təbəqələşməsi aiddir. Maaşların gecikdirilməsi, ixtisarlar, əhalinin gəlirlərinin ümumi səviyyəsinin azalması, həddindən artıq zəngin insanlardan ibarət kiçik bir qrupun ayrılması - bütün bunlar iqtisadi təhlükəsizlik problemlərindən birini həll etməyə yönəlmiş tarazlığın pozulmasına səbəb olur. Beləliklə, əhalinin iqtisadi təhlükəsizliyi dedikdə, dövlətin iqtisadi sisteminin ölkənin bütün əhalisinin həyatı üçün lazımi şərtləri yaratmaq qabiliyyətini başa düşürük. Dövlət, öz növbəsində, aşağıdakıları həyata keçirtməyi borcludur: əhali üçün məqbul ekoloji şərait yaratmaq; məşğulluq məsələsində səmərəli fəaliyyət göstərmək; işsizliyi məhdudlaşdırmaq; təhsil və mədəniyyət hüququ vermək; əhaliyə tibbi xidmət göstərmək; informasiya təhlükəsizliyinə nəzarət etmək; əhalini ərzaqla təmin etmək.

Əhalinin iqtisadi təhlükəsizliyi sahəsində baş verən mənfi dəyişikliklərə mümkün qədər tez reaksiya vermək üçün, dövlət strukturları müəyyən statistik göstəricilərdən və

*©Sevda Məmməd qızı Seyidova i.f.d.AMEA İqtisadiyyat İnstitutu.*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

indikatorlardan istifadə edirlər. Qeyd etmək lazımdır ki, iqtisadi sabitlik göstəriciləri dinamikdirlər. Bu və ya digər sahədə vəziyyətin kritik olmasını müəyyən etmək üçün məqbul parametrlərin hədd göstəricilərindən istifadə olunur. Məsələn, Azərbaycanda ölkə əhalisinin ən varlı və ən kasıb təbəqələrinin gəlirləri arasında fərqin hədd göstəricisi təqribən 6-8 dəfə təşkil edir. Lakin inkişaf etmiş ölkələrdə Cini indikatloru 0,15-0,17 faizdir [6]. Hesab edilir ki, əgər bu göstərici 1-dən çoxdursa, ölkədə qeyri-sabitlik müşahidə olunur. Cini indikatoru – müəyyən xarakteristikaların müqayisə edilməsi üçün tətbiq edilən statistika modelidir. Statistik indikatorlar kimi aşağıdakı göstəricilər nəzərə alınır: əhalinin həyat səviyyəsi (nominal əməkhaqqı, müəyyən dövr ərzində nominal əməkhaqqının faizlə artımı, əməkhaqqı üzrə borclar, yaşayış minimumunun həcmi, təqaüdün orta həcmi və s.); demoqrafik göstəricilər (doğum və ölüm dinamikası, əhalinin yaş strukturu, ölkəyə gələn miqrantların sayı və s.); işsizliyin səviyyəsi və işəgötürənlərin tələbat səviyyəsi; əhali tərəfindən əmtəə və xidmətlərin istehlakı səviyyəsi. Bu göstəricilər əsasında əhalinin gəlirlərinin və ümumi həyat səviyyəsinin artması və ya aşağı düşməsi haqqında müəyyən nəticəyə gəlmək olar.

Əhalinin iqtisadi təhlükəsizliyi sahəsində təhlükələrin qarşısını almaq üçün, dövlət aşağıdakı tədbirləri həyata keçirə bilər: Əhalinin məşğulluq səviyyəsinin artırılması: əmək bazarının çevikliyini artırmaq, məşğulluq səviyyəsinin artırılmasını stimullaşdırmaq, bölgələrdə işsizliyin təhlilini aparmaq. Həyat səviyyəsinin artırılması isə bu kimi tədbirlərin icrasını ehtiva edir: yoxsulluğun səviyyəsinin azaldılması (əməkhaqqının minimal həcminin artırılması, pensiya sisteminin optimallaşdırılması, əhalinin aztəminatlı təbəqələrinə sosial yardımların verilməsi); gəlirlərin bölüşdürülməsi sisteminin təkmilləşdirilməsi; rifahın əlçatanlığı; kiçik və orta biznesin inkişafı; kiçik və orta biznesə investisiya qoyanlar üçün cəlbedici situasiyanın yaradılması. Qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan iqtisadiyyatı bir sıra xarici iqtisadi problemlərin təsirinə məruz qalmışdır ki, bu da əhalinin həyat səviyyəsinə müəyyən təsirlər göstərmişdir. Belə ki, ölkə iqtisadiyyatı dünya neft və qaz bazarında baş verən dəyişikliklərdən asılıdır ki, bu da ölkənin icra orqanları tərəfindən balanslaşdırılmış siyasi və iqtisadi qərarların verilməsini tələb edir.



Müasir dövrdə Azərbaycan da daxil olmaqla, əksər ölkələr bir çox problemlərlə qarşılaşırlar. Qlobal iqtisadi qeyri-sabitlik ölkə əhalisinin iqtisadi təhlükəsizliyinin səviyyəsinə birbaşa təsir göstərir. İqtisadi təhlükəsizliyin strukturunu aşağıdakı kimi təsvir etmək olar:

- İqtisadi müstəqillik və təhlükəsizlik;
- Milli iqtisadiyyatın sabitliyi və dayanıqlığı;
- İqtisadiyyatın tərəqqi və inkişaf etmək qabiliyyətli olması. Bütün bu xüsusiyyətlər müasir dövrdə çox aktual və vacibdirlər.

Hədd göstəriciləri iqtisadi təhlükəsizlik probleminin həllində böyük əhəmiyyət kəsb edirlər. Hədd göstəriciləri müəyyən parametrlərin maksimal həddlərini müəyyən edir ki, onların pozulması iqtisadiyyatın müxtəlif elementlərinin inkişafının pozulmasına səbəb ola bilər. Məsələn, dövlət borcunun maksimum məqbul səviyyəsi, milli iqtisadiyyatın xarici istehsalçılardan asılılığı, yaşayış səviyyəsində mümkün olan enmənin son həddi və s. İqtisadi təhlükəsizliyin təmin edilməsi - cəmiyyətin təhlükəsizliyini və sabitliyini qorumaq, onu korrupsiya elementlərindən mühafizə etmək, dövlətin vətəndaşları resurslarla təmin etmək və təkcə iqtisadiyyatın deyil, həyatın digər sahələrini inkişaf etdirmək qabiliyyəti deməkdir.

**Əmək bazarının iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi**

İqtisadi təhlükəsizliyin durumu dövlətin əsas inkişaf meyarıdır. Onun vəziyyətinin qiymətləndirilməsi xüsusi göstəricilər – indikatorlar vasitəsi ilə aparılır. İqtisadi təhlükəsizlik indikatorları – müəssisə, sahə, ölkə iqtisadiyyatında əsas «ağrılı nöqtələri» əks etdirən xüsusi göstəricilər sistemidir. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin əsas

göstəricilərinə ÜDM səviyyəsi, ÜMG səviyyəsi, maliyyə təhlükəsizliyi, ölkə iqtisadiyyatının və xarici ticarətin strukturu, əhalinin məşğulluq səviyyəsi, həyat səviyyəsi və s. aiddir. Bu göstəricilər Azərbaycanın iqtisadi təhlükəsizliyi üçün mövcud ola biləcək təhdidlərin aşkar edilməsini təmin edirlər. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2015-ci ilə nisbətən, 2018-ci ildə Azərbaycan Respublikasında ÜDM-n manatla ümumi həcmi 1,5 dəfə artıb. Dollarla isə bu göstərici 0,1 dəfə təşkil edir. Bu vəziyyət, 2015-2016-cı illərdə dolların məzənnəsinin kəskin artması ilə əlaqəlidir. 2015-ci ilə nisbətən, 2018-ci ildə adambaşına ÜDM-n həcmi manatla 1,4 dəfə artsa da, dollarla ifadədə bu göstərici 0,8 dəfə olmuşdur. [1.11]

**Cədvəl 1.**

**Bəzi makroiqtisadi göstəricilərin dinamikası**

| | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| **Əmək qabiliyyətli yaşda əhali, cəmi** | 6677,8 | 6705,5 | 6771,6 | 6842,5 |
| **İqtisadiyyatda məşğul olanların sayı, min nəfər** | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 |
| **O cümlədən, qeyri-dövlət müəssisələrində min nəfər** | 3495,5 | 3588,5 | 3663,7 | 3724,4 |
| **Əhalinin gəlirləri, mln. manat** | 41744,8 | 45395,1 | 49187,9 | 53688,6 |
| **İşsiz statusu verilmiş şəxslər, nəfər** | 28877 | 32972 | 38481 | 20088 |
| **Muzdla çalışan işçilərin orta ay-lıq nominal əmakhaqqı, manat** | 466,9 | 499,8 | 528,5 | 544,6 |
| **ÜDM, cəmi, mln. manat**<br>**Əhalinin hər nəfərinə, manat** | 53380,0<br>5706,6 | 60425,2<br>6269,6 | 70337,8<br>7226 | 79797,3<br>8126,2 |
| **Faktiki son istehlak, manat** | 37575,7 | 43228,5 | 48482,2 | 50552,9 |

Cədvəl müəllif tərəfindən [1] və [2] mənbəyi əsasında tərtib edilmişdir.



Statistik məlumatlara əsasən, 2015-2018-ci ilər ərzində ölkədə əməkqabiliyyətli yaşda əhalinin sayı 164,7 min nəfər (2,7%) artmışdır. Həmin dövr ərzində iqtisadiyyatda məşğul olanların sayı isə – 207,7 min nəfər (4,4%) artmışdır ki, bu da məşğul olanların sayında əməkqabiliyyətli yaşdan yuxarı olan şəxslərin sayının artmasını göstərir. Əhalinin gəlirlərinin dinamikasına nəzər salsaq, görərik ki, əvvəlki ilə nisbətən, 2011-ci ildə əhali gəlirləri 9,0% artmışdır. 2015-ci ildə bu göstərici 5,8%, 2018-ci ildə isə 9,2% təşkil etmişdir. Ümumilikdə 2015-2018-ci illər ərzində əhalinin gəlirləri 28,6 faiz artmışdır [2, 18].

2015-ci ilə nisbətən, 2018-ci ildə işsizlik statusu verilən şəxslərin sayı 8789 nəfər (30,4%) azalmışdır. 2015-2018-ci illər ərzində muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 77,7 manat (16,6%) artaraq, 544,6 manata çatmışdır. Həmin dövr ərzində faktiki son istehlakın həcmi 12977,2 manat (34,5%) artaraq, 50552,9 manata çatmışdır. [2, 21]

**Cədvəl 2.**

**Azərbaycanda iqtisadiyyata qoyulan investisiyaların həcmi**

| | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| **İqtisadiyyata yönəldilən investisiyalar:**<br>**mln. manat**<br>**mln. dollar** | 20 057,4<br>19547,2 | 22 706,4<br>14228 | 24 462,5<br>14213,3 | 25 877<br>15221,7 |
| **Xarici investisiyalar:**<br>**mln. manat**<br>**mln. dollar** | 10998,9<br>10719,1 | 16216,1<br>10161,1 | 15697,3<br>9120,5 | 14002,1<br>8236,5 |

Cədvəl müəllif tərəfindən, [1] və [2] mənbəyi əsasında tərtib edilmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bütün mənbələr üzrə investisiya qoyuluşlarına gəldikdə (xarici investisiyalar nəzərə alınmaqla), 2018-ci ildə Azərbaycan iqtisadiyyatına cəmi 25877,0 mln. manat investisiya qoyulmuşdur ki, da da 2015-ci ilə nisbətən, 5819,6 mln. manat (22,5%) çoxdur. Lakin, məlum səbəblərə görə (dolların məzənəsinin qalxması, manatın məzənnəsinin aşağı düşməsi) ölkə iqtisadiyyatına qoyulan investisiyaların dollarla həcmi aşağı düşmüşdür. Əgər 2015-ci ildə ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 19547,2 mln. dollar təşkil edirdisə, 2018-ci ildə bu göstərici 15221,7 mln. dollar (22,1% aşağı) olmuşdur [2,403]. Ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi 2015-ci ildə 10719,1 mln. dollar idisə, 2018-ci ildə bu göstərici 8236,5 mln. dollar təşkil etmişdir [2, 403]. 2018-ci ilə nisbətən, 2019-cu ilin sonunda ən vacib makroiqtisadi göstəricilərdən biri olan inflyasiyanın səviyyəsi 2,1 faizdən 2,4 faizə yüksəlib. Aylıq inflyasiya isə 0,6 faizdən 0,4 faizə düşüb [5]. Lakin, mənfi nəticələr də var. 2017-ci ilin müvafiq dövrünə nisbətən, 2018-ci ildə sənaye məhsulunun artımı 7,1% aşağı düşmüşdür. Bu azalma özünü daha çox daş, qum, çınqıl, duz və digər mədənçıxartma sənayesi məhsullarının hasilatında, qida məhsullarının istehsalı, toxuculuq sənayesində və s. sahələrdə göstərmişdir. [2, 459] 2015-2018-ci illər ərzində pərakəndə ticarət dövriyyəsi 11368,9mln. manat artmışdır, lakin istehlak kreditlərinin artması səbəbi ilə, əhalinin real gəlirləri azalmağa meyllidir [3, 13]. 2015-2018-ci illər ərzində məşğulluq xidməti orqanlarında işsiz statusu verilmiş şəxslərin sayı aşağı düşmüş (30,5 %) və əvvəlki dövrlərə nisbətən, bir qədər azalmışdır. [4, 22] Ümumilikdə, bəzi göstəricilər üzrə azalma meylləri olsa da, Azərbaycan iqtisadiyyatı haqqında optimist proqnoz vermək olar. Lakin, bu sahədə hələ görüləsi işlər çoxdur.

**Məşğulluğun inkişafı – iqisadi təhlükəsizliyin əsasıdır**

İqtisadi təhlükəsizliyə təhdidlər dedikdə, ölkə iqtisadiyyatına mənfi təsir göstərən, şəxslərin, cəmiyyətin və dövlətin iqtisadi maraqlarının həyata keçirilməsinə mane olan, milli dəyərlərə təhlükə yaradan və cəmiyyətdəki sosial-iqtisadi vəziyyəti pozan hadisələr və proseslər nəzərdə tutulur. İqtisadi təhlükəsizlik təmin olunmadan, ölkə qarşısında duran heç bir məsələni həll etmək mümkün deyil. Biz hesab edirik ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatında mövcud olan müəyyən problemlər ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərirlər. Onlardan, ölkə iqtisadiyyatının xammal yönümlü olması, sənaye sahələrində müasir innovasiyalı texnologiyaların və məhsulların tətbiq edilməməsi, müəyyən dərəcədə kölgə iqtisadiyyatının mövcud olması. Həmçinin, strateji əhəmiyyətli təsərrüfat subyektlərinin özəlləşdirilməsi və dövlətin ölkə iqtisadiyyatında iştirakının azaldılması da iqtisadi təhlükəsizliyin pozulmasına gətirib çıxara bilər. Eləcə də, bir çox digər təhdidlər var ki, onlar da ölkə iqtisadiyyatına müəyyən təhlükələri özündə ehtiva edir. Məsələn, bank sektorunda yaranan böhran kredit vəsaitlərinin əldə edilməsində məhdudiyyətlər yaradır ki, bu investisiya aktivliyinin zəifləməsinə, ölkədə investisiya prosesinin tənəzzülünə və manatın məzənnəsinin düşməsinə gətirib çıxara bilər.

Müasir dövrdə Azərbaycanda aparılan islahatlar milli iqtisadi sistemin formalaşması və inkişaf şərtlərini müəyyən edirlər. Bazar iqtisadiyyatının ümumi formalaşma prosesi öz məcmu əksini məşğulluq sahəsində tapır, çünki iqtisadi hadisələrin əksəriyyəti bu və ya digər dərəcədə, həmin sahədə baş verən amillərin və proseslərin nəticəsi kimi təzahür edirlər. Aparılan iqtisadi islahatlar nəticəsində əmək münasibətləri sahəsində daha dərin transformasiya baş vermişdir. Əmək bazarı və əmək ehtiyatları - dövlətin əlində cəmləşmiş güclü bir potensialdır. Bu potensial vasitəsi ilə dövlət iqtisadiyyata təsir göstərə bilir. İqtisadi hadisələrin əksəriyyəti, bu və ya digər dərəcədə, məşğulluq sahəsində baş verən proseslərin nəticəsi kimi çıxış edirlər. Buna görə, məşğulluq - milli rifahı, milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin vəziyyətini qiymətləndirən indikatordur. Bu indikator iqtisadi sistemin transformasiyasının səmərəliliyinin göstəricisidir. Məşğulluq nəinki iqtisadi təhlükəsizlik



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

göstəricisidir, eyni zamanda, o, təhlükəsizliyin vəziyyətinə təsir göstərən amildir. Bununla əlaqədar, əmək bazarında təhlükələri bir neçə səviyyədə təhlil etmək lazımdır: milli, regional səviyyə və fərdi səviyyə. İqtisadi təhlükəsizlik deyəndə aşağıdakıları nəzərdə tuturuq:

- Milli səviyyədə – milli maraqların iqtisadi vasitələrlə təmin edilməsi, iqtisadi sistemin hədd göstəricilər çərçivəsində saxlanılması; milli təsərrüfat subyektlərinin iqtisadi maraqlarının razılaşdırılması;
- Region səviyyəsində – regionun sabit və dayanıqlı inkişafı, ölkə daxilində səmərəli iqtisadi siyasətin aparılması imkanları, mərkəzin və regionun maraqlarının tarazlaşdırılması;
- Fərdi səviyyədə - fərd səviyyəsində - məşğulluqla əlaqədar şəxsin təhlükəsizliyi, habelə işçinin və işəgötürənin maraqlar balansının qorunması.

Əmək bazarında təhdidlərin milli iqtisadiyyat səviyyəsində əks olunması dövlət məşğulluq siyasəti sayəsində mümkündür. Bu siyasət özündə aşağıdakıları ehtiva edir:

- məşğulluğun sahə quruluşunda mütərəqqi dəyişikliklərin təmin edilməsi;
- iqtisadi fəal əhalinin əmək münasibətlərinin yeni formalarına yönəldilməsi;
- əmək bazarının çevikliyinin artırılması;
- iş qüvvəsinin və iş yerlərinin sayı arasında tarazlığın təmin edilməsi;
- regional əmək bazarlarında kütləvi işsizliyin qarşısının alınması;
- əmək şəraiti və əməkhaqqının ödənilməsi baxımından mövcud iş yerlərinin səmərəliliyinin qaldırılması və yeni iş yerlərinin yaradılması;
- hazırlanma, yenidən hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi yolu ilə kadr potensialının inkişafı;
- əmək resurslarının çevikliyinin artırılması;
- daxili əmək miqrasiyasının sosial-iqtisadi tənzimlənməsi.



Eyni zamanda, əmək bazarında təhlükələrin neytrallaşdırılması imkanları çox məhduddur. Makroiqtisadi siyasət birbaşa olaraq, yalnız rəsmi bazara təsir göstərə bilər. Bununla belə, məşğulluq siyasəti o zaman səmərəli ola bilər ki, o, mövcud işsizlər üçün, xüsusilə də əmək bazarına yenicə daxil olanlar üçün, yeni iş yerlərinin yaradılmasına istiqamətlənsin.

**Nəticə**

Hesab edirik ki, məşğulluq siyasətinin məqsədlərindən biri də – gizli işsizliyin aşkar şsizliyə çevrilməsidir. Bu, əmək bazarında vəziyyəti real qiymətləndirməyə və onu daha səmərəli idarə etməyə imkan verər. Məşğulluğun dinamikasının qiymətləndirilməsi və onun proqnozlaşdırılması üzrə tədbirlərin görülməsi çox böyük əhəmiyyət kəsb edir. Bu sahədə praktiki tədbirlər kimi, gələcək Ali məktəb məzunlarının işə götürülməsi üzrə mərkəzlərin yaradılması, peşə-ixtisas mərkəzlərinin yaradılması, peşə və ixtisaslarını dəyişdikdə, iş qüvvəsinin bir sahədən digər sahəyə keçdikdə işçilərin peşə-ixtisas hazırlığı imkanlarını genişləndirən sahibkarlara subsidiyaların verilməsi (məsələn, vergi güzəştləri şəklində); ilk dəfə əmək bazarına çıxan işçilərin və sərbəst qalan iş qüvvəsinin peşə-ixtisas tərkibi nəzərə alınmaqla, bölgələrdə yeni istehsal sahələrinin, iş yerlərinin yaradılması. Əgər bazar tipli məşğulluq sahəsində islahatlar apararkən, məşğulluğun makroiqtisadi tənzimlənməsinin gücləndirilməsi və əmək bazarında siyasətin tənzimlənməsi iqtisadi konyunktura müvafiq aparılarsa, deməli həmin siyasət əmək bazarında iqtisadi və sosial prioritetlərin tarazlığının dəstəklənməsinə istiqamətlənmişdir və tətbiq edilən strategiya milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyini artırır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Azərbaycanın milli hesabları. Statistik məcmuə. Bakı - 2019, səh.11.
2. Azərbaycanın statistik göstəriciləri - 2019. Statistik məcmuə. Bakı - 2019, səh. 21.
3. Azərbaycanda ticarət. Statistik məcmuə. Bakı - 2019, səh.13.
4. Əmək bazarı. Statistik məcmuə. Bakı - 2019, səh.22.
5. https://banco.az/az/news/azerbaycanda-inflyasiya-aciqlandi-2
6. https://theworldonly.org/neravenstvo-v-tsifrah-indikatory-sostoyaniya-mira-koeffitsient-dzhini/
7. Борзых Л.А. Исторические императивы обеспечения экономической безопасности России // Социально-экономические явления и процессы. 2013. № 11. С. 15–20.
8. Писаренко А.О. Национальные интересы: приоритеты и безопасность, 2018, т. 14, вып. 5, стр. 927–940 http://fin-izdat.ru/journal/national/

***Севда Мамед кызы Сеидова***

***Занятость – как один из основных компонентов экономической безопасности***

***Резюме***

*В статье исследована проблема экономической безопасности, проведена оценка ее основных показателей. Автор провел анализ таких основных индикаторов экономической безопасности, как ВВП, доходы населения, уровень безработицы, инвестиции, вложенные в экономику, уровень инфляции и другие показатели. В статье показана роль занятости в экономической безопасности государства и населения, подчеркнуто значение усиления макроэкономического регулирования занятости и государственного регулирования на рынке труда.*

***Ключевые слова:*** *экономическая безопасность, занятость, рынок труда, безработица*

***Sevda Mammad Seyidova***

***Employment - as one of the main components of economic security***

***Summary***

*The article explores the problem of economic security, evaluates its main indicators. The author analyzed such key indicators of economic security as GDP, population incomes, unemployment, investments in the economy, inflation and other indicators. The article shows the role of employment in the economic security of the state and the population, emphasizes the importance of strengthening the macroeconomic regulation of employment and state regulation in the labor market.*

***Keywords:*** *economic security, employment, labor market, unemployment*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.02.2020.***
***Çapa qəbul olunub: 21.02.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*